# TÜRKİYƏ DƏYANƏT VƏQFİ BAKI TÜRK LİSEYİ

**VI və IX siniflərə şagird qəbulu elan edir.**

TDV Bakı Türk Liseyi 2020-2021-ci dərs ili üçün VI və IX siniflərə şagird qəbulu elan edir. Lisey Təhsil Nazirliyinə bağlıdır. Ümumi orta təhsil məktəblərində tədris olunan dərs proqramına uyğun olaraq dərslər Azərbaycan dilindədir. Təhsil pulsuzdur.

**1) MÜRACİƏT MÜDDƏTİ VƏ QƏBUL ŞƏRTLƏRİ:**

Müraciətlər iyun ayının 1-dən 27-dək hər gün saat 10:00-dan 18:00-a qədər qəbul olunacaq. Pandemiya şəraiti olduğu üçün qeydiyyat lisey binasının üç (3) məntəqəsində aparılacaq. Liseyə 2019-2020 tədris ilində V və VIII sinifdə oxuyan şagirdlər müraciət edə bilərlər.

**2) TƏQDİM OLUNACAQ SƏNƏDLƏR:**

a) Şagirdin V və VIII sinifdə oxuduğunu göstərən və məktəbin möhürü ilə təsdiq olunmuş arayış ***(Möhür şəklin üzərinə vurulur.)***

b) 2 ədəd foto şəkil ***(3 x 4 ölçüdə)***

**Diqqət !!! Qeydiyyata gələrkən valideyn mütləq *qoruyucu tibbi maskadan istifadə etməlidir.***

**3) İMTAHAN TARİXİ VƏ YERİ:**

Qəbul imtahanı 2020-ci il iyul ayının 1-də VIII siniflər üçün ***TDV Bakı Türk Liseyində,*** iyul ayının 7-də isə V siniflər üçün ***TDV Bakı Türk Liseyi*** və ***Bakı Anadolu Türk Liseyi*** binalarında saat 10:00-da keçiriləcək. İmtahan binasına giriş səhər saat 08:00-dan başlanacaq.

**4) İMTAHAN FƏNLƏRİ VƏ İMTAHAN ŞƏKLİ:**

İmtahan V sinif şagirdləri üçün ana dili, riyaziyyat, Azərbaycan tarixi , ingilis dili,
VIII sinif şagirdləri üçün isə seçdiyi ixtisas qrupu üzrə (1-ci qrup Azərbaycan dili, ingilis dili, fizika, kimya, riyaziyyat; 2-ci qrup Azərbaycan dili, ingilis dili, tarix, coğrafiya, riyaziyyat; 3-cü qrup Azərbaycan dili, ingilis dili, tarix, ədəbiyyat, riyaziyyat; 4-cü qrup Azərbaycan dili, biologiya, fizika, kimya, riyaziyyat) fənlərdən test üsulu ilə keçiriləcəkdir. Suallar Azərbaycan dilindədir.

**5) İMTAHAN NƏTİCƏLƏRİNİN ELANI:**

Qəbul nəticələri 18/07/2020-ci ildə elan ediləcək.

**6) ƏLAVƏLƏR:**

İmtahana ancaq lisey müdiriyyəti tərəfindən buraxılış vəsiqəsi verilmiş şagirdlər buraxılacaq.

**Şagirdlər imtahana:**

**a) İmtahana buraxılış vəsiqəsi**

**b) 2 ədəd sadə qələm və 1 ədəd pozan ilə gəlməlidirlər.**

**Diqqət !!! Şagirdlər imtahanda mütləq *qoruyucu tibbi maskadan istifadə* etməlidirlər.**

**Ünvan: Nəsimi ray. Bəsti Bağırova küçəsi. ( Zabitlər parkının yanı )**
**Əlaqə telefonları: 597 31 93 / 597 31 95**

**www.tdv-btl.edu.az**

**TƏŞƏKKÜR EDİRİK**